Xidmətin məzmunu :
Tikintiyə icazənin qüvvədə olma müddətinin uzadılması

Xidməti həyata keçirən dövlət orqanının və (və ya) onun struktur bölməsinin adı :
İcra Hakimiyyəti Başçısı Aparatının memarlıq və tikinti şöbəsi

Xidmətin icrasında iştirak edən dövlət orqanının və (və ya) onun struktur bölməsinin adı :
- Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi
- Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi

Xidmətin hüquqi əsası :
- Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 77.2-ci maddəsi.

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 iyul tarixli 264 nömrəli qərarı ilə təsdiq edilmiş "Tikintiyə icazənin qüvvədə olma müddətinin uzadılması ilə bağlı hallar".

Xidmətin həyata keçirilmə formaları :
Xidmət yerinə gəlməklə müraciət və nəticənin kağız daşıyıcısında təqdim olunması

Xidmətin həyata keçirilməsi və nəticəsi proseduru barədə məlumatlandırma forması :
Poçt xidməti vasitəsilə məlumatlandırma

Xidmətin həyata keçirilməsinin nəticəsi :
İcra Hakimiyyəti başçısının sərəncamı

Xidmət istifadəçisi barədə məlumat :
- Fiziki şəxslər
- Hüquqi şəxslər

Xidmətin həyata keçirilməsi müddəti, Dövlət rüsumu, Xidmət haqqı, Ödənişin hüquqi əsası :

Müddət	30 gün
Ödənişsiz	Xidmət ödənişsiz həyata keçirilir

Xidmətin həyata keçirilməsi üçün müraciətlərin qəbulunun vaxtı və müddəti :

Bazar ertəsi - Cümə günləri 09:00-18:00 (Nahar fasiləsi 13:00-14:00)

Xidmətin göstərilmə yeri :

Şəki Şəhər İcra Hakimiyyətinin inzibati binası

Xidmətin həyata keçirilməsinin dayandırılması və ya ondan imtina edilməsinin hüquqi əsasları :

Təqdim edilən sənədlər düzgün təqdim edilmədikdə və ya Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 iyul tarixli 264 nömrəli qərarı ilə təsdiq edilmiş "Tikintiyə icazənin qüvvədə olma müddətinin uzadılması ilə bağlı hallar"ın 4-cü hissəsinə uyğun olaraq müəyyən edilmiş müraciət müddətin keçirdikdə. Belə ki, qeyd edilən normaya əsasən bu normativ-hüquqi aktın 2-ci hissəsində göstərilən hallar istisna olmaqla, tikintiyə icazənin qüvvədə olma müddətinin uzadılması üçün sifarişçi tikintiyə icazə barədə qərarın qəbul edildiyi gündən hesablanan 3 (üç) illik müddətin bitməsinə 60 (altmış) gün qalanadək müvafiq yerli icra hakimiyyəti orqanına müraciət etməlidir.

Xidmətin həyata keçirilməsi üçün tələb olunan sənədlər və onların təqdimedilmə forması :

Tələb olunan sənədin adı
- Tələb olunan sənədin təqdimedilmə forması

tikinti ərazisinə aid olan ərazi planlaşdırılması sənədlərində müvafiq dəyişikliklər edildikdə Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin rəyi
- Kağız daşıyıcıda

təbii və ya texnogen xarakterli fövqəladə hadisələr baş verdikdə, həmin hadisələrin təsir dairəsində olan tikinti ərazisində təbii fəlakətin nəticələrinin aradan qaldırılması ilə bağlı müvafiq tədbirlər yerinə yetirildikdə, bu tədbirlərin icrası üçün Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin qəbul etdiyi qərar
- Kağız daşıyıcıda

tikinti obyektinin sökülməsi haqqında qərar
- Kağız daşıyıcıda

tikintinin başlanılmasının və ya başa çatdırılmasının mümkün olmadığını təsdiq edən sənədlər
- Kağız daşıyıcıda

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin tikinti işlərinin dayandırılması ilə bağlı qərarı
- Kağız daşıyıcıda

tikinti ərazisinə aid olan ərazi planlaşdırılması sənədlərində müvafiq dəyişikliklər edilməsi barədə sənəd

- Kağız daşıyıcıda

Xidmətin həyata keçirilməsi üçün inzibati prosedurlar :

Tikintiyə icazənin qüvvədə olma müddətinin uzadılması sifarişçinin yazılı müraciəti əsasında tikintiyə icazə verən orqanın qərarı ilə rəsmiləşdirilir. Həmin qərarda tikintiyə icazənin uzadılması səbəbləri və müddəti göstərilməlidir. Tikintiyə icazənin qüvvədə olma müddəti sifarişçinin birinci müraciəti əsasında qəbul edilən qərarın sifarişçiyə təqdim edildiyi (göndərildiyi) gündən 1 (bir) il müddətinə uzadılır. Tikintiyə icazənin qüvvədə olma müddətinin uzadılması barədə sifarişçinin əsaslandırılmış növbəti müraciəti Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin rəyi əsasında tikintiyə icazə verən orqanın qərarı ilə rəsmiləşdirilir.

"Tikintiyə icazənin qüvvədə olma müddətinin uzadılması ilə bağlı hallar"ın 2-ci hissəsinə əsasən aşağıdakı hallarda tikintiyə icazənin qüvvədə olma müddəti sifarişçinin müraciəti əsasında tikintiyə icazə verən orqanın qərarı ilə qeyd-şərtsiz olaraq aşağıda göstərilən müddətə uzadılır:

2.1. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin tikinti işlərinin dayandırılması ilə bağlı qərarı olduğu halda, həmin qərarın qüvvədə olduğu müddətə;

2.2. təbii və ya texnogen xarakterli fövqəladə hadisələr baş verdikdə, həmin hadisələrin təsir dairəsində olan tikinti ərazisində təbii fəlakətin nəticələrinin aradan qaldırılması ilə bağlı müvafiq tədbirlər yerinə yetirildikdə, bu tədbirlərin icrası üçün Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin qəbul etdiyi qərarda müəyyən edilən müddətə;

2.3. tikinti ərazisinə aid olan ərazi planlaşdırılması sənədlərində müvafiq dəyişikliklər edildikdə, bu barədə aidiyyəti yerli icra hakimiyyəti orqanının yazılı xəbərdarlığından sonra qərar qəbul edilən tarixədək olan müddətin və bununla əlaqədar ortaya çıxan əlavə işlər üçün layihədə dəyişikliklər edilməsi tələb olunan müddətin cəmini təşkil edən müddətə (bu halda Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin rəyi alınmalıdır);

2.4. tikinti obyektinin sökülməsi haqqında qərar qəbul edildiyi hallarda, sökülmə barədə qərar qəbul edildiyi tarixdən həmin qərara əsasən tikinti obyekti sökülənədək əhatə olunan müddətə;

2.5. Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilən digər əsaslarla müəyyən edilən müddətə.

"Tikintiyə icazənin qüvvədə olma müddətinin uzadılması ilə bağlı hallar"ın 3-cü hissəsinə əsasən bu sənədin 2.1-2.4-cü bəndlərində göstərilən halların bir neçəsi birlikdə mövcud olduqda, tikintiyə icazə qeyd-şərtsiz olaraq həmin bəndlərdə nəzərdə tutulan müddətlərin cəmini təşkil edən, lakin 3 (üç) ildən çox olmayan müddətə uzadılır.

Bu normativ-hüquqi aktın 2.2-ci və 2.4-cü bəndlərində nəzərdə tutulan müvafiq olaraq Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin qəbul etdiyi qərarın və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin rəyi tikintiyə icazə verən orqanın sorğusu əsasında həmin qurumlar tərəfindən sorğu edildiyi gündən 3 (üç) iş günü müddətində ona təqdim olunur.

Tikintiyə icazənin qüvvədə olma müddətinin uzadılması barədə sifarişçinin müraciətinə 10 (on) iş günü müddətində baxılır. Həmin müddətdə

sifarişçiyə tikintiyə icazənin qüvvədə olma müddətinin uzadılması barədə qərarın surəti və ya əsaslandırılmış imtina təqdim edilir.
Tikintiyə icazənin qüvvədə olma müddətinin uzadılması ödənişsiz həyata keçirilir.
Tikintiyə icazənin qüvvədə olma müddətinin uzadılması və ya əsaslandırılmış imtina barədə qərar haqqında məlumat Məcəllənin 75.10-cu maddəsinə əsasən 10 (on) gün müddətində Tikintilərin Dövlət Reyestrinə təqdim edilir. Həmin məlumatlar 3 (üç) iş günü müddətində Tikintilərin Dövlət Reyestrinin internet səhifəsində yerləşdirilir.

Xidmətlərdən istifadə zamanı yaranan mübahisələrin məhkəməyəqədər (məhkəmədənkənar) həlli imkanları barədə məlumatlar :

- İstifadəçi "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 71-ci maddəsinə əsasən inzibati aktdan, inzibati aktın qəbul edilməsindən imtinadan və yaxud inzibati orqanın hərəkət və və ya hərəkətsizliyindən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına inzibati qaydada şikayət edə bilər.

- Ərizə və ya şikayət "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 74-cü maddəsinə uyğun olmalıdır. Şikayətə "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 78-ci maddəsində müəyyən olunmuş qaydada 1 ay müddətində baxılır.

Xidmətin həyata keçirilməsində istifadə edilən informasiya sistemləri və ehtiyatları :

Yoxdur

Xidmətin həyata keçirilməsində istifadə edilən fərdi məlumatların informasiya sistemləri :

Yoxdur

Xidmətin elektronlaşma səviyyəsi :

Elektronlaşdırılmayıb

Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi :

Avtomatlaşdırılmayıb

Şəki Şəhər İcra Hakimiyyəti

Ünvan:	Az 5500 20 Yanvar küçəsi, 8
Telefon:	(024) 244-33-23
Faks:	(024) 244-39-94

E-poçt:	mail@sheki-ih.gov.az
Rəsmi internet informasiya ehtiyatının ünvanı:	sheki-ih.gov.az
VÖEN:	3000072051
Ödəmə rekvizitləri:	A 1. Emitent (ödəyən) bank Adı: Kapital bank Şəki filialı Kodu: 200703 VÖEN: 9900003611 Müxbir hesabı: AZ37NABZ01350100000000001944 S.Ü.İ.F.T. BİK: AIIBAZ2X A 2. Ödəyən müştəri Adı: Şəki Yerli Xəzinədarlıq Orqanı (YXO) Hesab nömrəsi: AZ03AIIB32051019447000201170 VÖEN: 3000104011
İş qrafiki və orqan tərəfindən zəruri hesab edilən digər məlumatlar:	Bazar ertəsi - Cümə günləri 09:00-18:00 (Nahar fasiləsi 13:00-14:00)